

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


*Qəzet 1921-ci ildən çıxır*

# ŞƏRQ qapısı

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 39 (21.191)

*25 fevral 2015-ci il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 24-də Avropa İttifaqının insan hüquqları üzrə xüsusi nümayəndəsi Stavros Lambrinidisin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında əlaqələrin inkişafından məmnunluq ifadə olundu və bu əlaqələrin müxtəlif sahələrdə genişləndirilməsinin önəmi qeyd edildi.

* * *

Fevralın 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Mingəçevir şəhərinə səfərə gedib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 24-də Mingəçevirdə 594 məcburi köçkün ailəsi üçün yeni salınan yaşayış kompleksində yaradılan şəraitlə, Mingəçevir Şəhər Mərkəzi Xəstəxanasında aparılan yenidənqurma işləri ilə tanış olub, Mingəçevir şəhərində Müşfiq Mirzəyev adına "Dostluq" parkında yaradılan şəraitlə maraqlanıb, Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa olunan uşaq bağçasının açılışında iştirak edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 24-də Mingəçevirdə Heydər Əliyev Parkında aparılan yenidənqurma işləri ilə, Kür çayının sağ sahilində inşa olunan "Ağsaray" otelində aparılan tikinti işlərinin gedişi ilə tanış olub.



# Naxçıvan Dövlət Universitetində elektron təhsil şəbəkəsi və rəqəmsal multimedia infrastrukturu yaradılmışdır

Fevralın 24-də Naxçıvan Dövlət Universitetində "Elektron təhsil şəbəkəsi və rəqəmsal multimedia infrastrukturu" layihəsinin açılışı olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov və Koreya Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Çoi Suk-İn İnformasiya-Kommunikasiya Texnologiyaları Mərkəzinin açılışını bildirən lenti kəsmiş, yaradılan şəraitlə tanış olmuşlar.





Bildirilmişdir ki, İnformasiya-Kommunikasiya Texnologiyaları Mərkəzi kamera-nəzarət sistemi, server və texniki təminat otaqlarından ibarətdir. Mərkəzdə 30 terabayt həcmində xüsusi serverlər və internet paylaşdırıcılar yerləşdirilmiş, 202 IP telefon quraşdırılaraq universitet vahid telefon şəbəkəsinə qoşulmuşdur. Mərkəzi server xüsusi təhlükəsizlik proqramları ilə təchiz olunmuş, otaqlarda yanğından mühafizə və kartla giriş sistemi yaradılmışdır. Layihə çərçivəsində tələbə və müəllimlərin kodlaşdırılması aparılmış, tələbələr üçün 14 min ədəd ID tələbə bileti, müəllimlər üçün 2000 ədəd ID kart hazırlanmışdır. Universitetin professor-müəllim və tələbə kontingenti haqqında məlumatlar, idarəetmə ilə bağlı sənədləşmə işləri, müəllimlərin elektron imzaları yeni qurulmuş sistemə köçürülmüş, tədris planları və mühazirələrin elektron bazası yaradılmışdır.

Kamera-nəzarət sisteminə birləşdirilən 47 videokamera vasitəsilə imtahanların gedişini birbaşa izləmək, yaddaşda saxlamaq və universitet ərazisinə nəzarət etmək mümkündür.

Rəqəmsal multimedia infrastrukturu ilə tanışlıq zamanı məlumat verilmişdir ki, "Universitet" televiziyasında yaradılan yeni infrastruktur videodərslərin hazırlanmasına və distant tədrisin tətbiqinə də imkan verəcəkdir. Bu məqsədlə "Universitet" televiziyasına 2 televizor, 5 yaxa və 2 masaüstü mikrofon dəsti, 6 səsgücləndirici, 1 montaj kompüteri, 2 videokamera və 12 proyektor verilmiş, virtual studiya quraşdırılmışdır. Sistem onlayn dərslərin hazırlanması və studiya çəkilişlərin aparılması üçün xüsusi proqramla təmin olunmuşdur. Hazırda "Universitet" televiziyasının və "Nuhçıxan" radiosunun Naxçıvan şəhərində rəqəmsal formatda yayımına başlanılmışdır. "Jurnalistika" ixtisası üzrə təhsil alan tələbələr yaradılan şəraitdən istifadə etməklə təcrübi biliklərini daha da möhkəmləndirəcəklər.

Ali Məclisin Sədri elektron mühazirə və imtahan otaqlarına baxmışdır.

Qeyd olunmuşdur ki, layihəyə uyğun olaraq 350 kompüter alınmış, universitetin fakültələrində 15 elektron kürsülü auditoriya, hər biri 29 kompüterlə təmin edilmiş 12 imtahan otağı yaradılmışdır. Universitet şəhərciyində 3900 metr optik kabel xətti çəkilmiş, tədris korpuslarının internet xətləri yenilənərək 14 server otağı qurulmuşdur. Həmçinin elek-



tron kitabxanada yeni internet mərkəzi istifadəyə verilmişdir. Fakültələrdə elektron cədvəllərin və məlumatların nümayişi üçün 30 monitor qoyulmuş, senat otağında policam kamera, 21 nəfərlik mikrofon, 3 elektron monitor və 1 elektron kürsü quraşdırılmışdır. Bütün bunlar da videokonfransların təşkilinə, tədris, imtahan və qiymətləndirmə proseslərinin daha şəffaf və çevik formada aparılmasına imkan verəcəkdir.

Sonra tədbir iştirakçıları Xocalı soyqırımına həsr olunmuş rəsm sərgisinə baxmışlar. Sərgidə universitetin müəllim və tələbələrinin müxtəlif janrlarda çəkdikləri 30 rəsm əsəri nümayiş olunmuşdur.

Tədbir konservatoriya binasının akt zalında davam etdirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Naxçıvan Dövlət Universitetində yeni elektron təhsil şəbəkəsinin istifadəyə verilməsi münasibətilə universitetin kollektivini təbrik etmiş, yeni təhsil infrastrukturunun qurulmasının təşəbbüskarlarına və təşkilatçılarına təşəkkür edərək demişdir: "Hər bir cəmiyyətin inkişafının kökündə elm və təhsil dayanır. Müasir dünyanın mənzərəsinə nəzər salsaq, görərik ki, elmə və təhsilə üstünlük verən ölkələr daim irəli gedir və tərəqqiyə qovuşurlar. Bu ölkələrin sırasında müstəqil Azərbaycanın da özünəməxsus yeri var. Ümummilli liderimiz Heydər Əliyev Azərbaycana rəhbərliyinin bütün dövrlərində yüksək bilikli və ixtisaslı gənc kadrların hazırlanmasını diqqətdə saxlamaqla Azərbaycanın inkişafını təmin etmişdir. Bu gün ümummilli liderimizin müəyyənləşdirdiyi təhsil strategiyası Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirilir. Ölkə rəhbəri dəfələrlə bildirib ki, Azərbaycanda milli tərəqqinin, gələcək inkişafın əsasının qoyulması elm və təhsilin inkişafından, gənclərin müasir biliklərə yiyələnməsindən asılıdır".

Ali Məclisin Sədri demişdir: "Ölkəmizdə insan kapitalının formalaşmasında təhsilin digər pillələri kimi, ali təhsilin də rolu əvəzsizdir. Əgər orta məktəb insanı həyata hazırlayırsa, ali məktəb onu yüksəkixtisaslı kadr kimi, müəyyən bir sahənin mütəxəssisi kimi yetişdirir. Bu mənada Azərbaycanda və onun Naxçıvan Muxtar Respublikasında ali məktəbə, ali təhsilin təşkilinə ciddi diqqət yetirilir. Ölkəmizin ali məktəblər ailəsinin layiqli üzvü olan Naxçıvan Dövlət Universiteti fəaliyyət istiqamətinə görə möhkəm milli əsaslara malik olan ali məktəbdir. Bu təhsil ocağında yeni tədris korpusları istifadəyə verilmiş, maddi-texniki baza xeyli möhkəmlənmiş, tədris müasir dünya təhsilinin tələblərinə uyğun qurulmuşdur. Bu da kadr hazırlığını xeyli yaxşılaşdırmış, yeni ixtisaslar açılmışdır. Bu gün Naxçıvan Dövlət Universiteti böyük və davamlı inkişafa malikdir. Aparılan məqsədyönlü işin, həyata keçirilən kompleks və sistemli tədbirlərin nəticəsidir ki, Naxçıvan Dövlət Universiteti son illərdə təlimin müvəffəqiyyət və keyfiyyət göstəricilərinə görə Azərbaycanın ali məktəbləri arasında layiqli yerini tutmuşdur. Bu yaxınlarda Azərbaycan Respublikası Təhsil Nazirliyinin keçirdiyi "Təhsil siyasəti üzrə təşəbbüskarlıq" istiqaməti əsasında Azərbaycanın ali təhsil müəssisələrinin reytinq cədvəlində Naxçıvan Dövlət Universiteti birinci yeri tutmuşdur".

Ali Məclisin Sədri yüksək nəticəyə görə universitetin kollektivinə təşəkkür edərək demişdir ki, əldə olunan nailiyyətlər Naxçıvan Dövlət Universitetinə dünyanın qabaqcıl ali təhsil müəssisələri ilə faydalı əməkdaşlıq əlaqələri qurmaq imkanı yaratmışdır.

*Ardı 2-ci səhifədə*





Bu gün Naxçıvan Dövlət Universiteti dünyanın 80-ə yaxın ali təhsil müəssisəsi ilə əməkdaşlıq edir. Bu əməkdaşlığın nəticəsidir ki, Naxçıvan Dövlət Universitetində 360-a yaxın xarici tələbə təhsil alır.

Qeyd olunmuşdur ki, Naxçıvan Dövlət Universitetinin faydalı tədris, elmi və tələbə mübadiləsi apardığı ölkələrdən biri də Koreya Respublikasıdır. Bu ölkə böyük iqtisadi, elmi və təhsil potensialına malikdir. Dünya iqtisadçıları müxtəlif dövrlərdə inkişaf edən ölkələrin müqayisəli təhlilini apararaq bu qənaətə gəliblər ki, 20-ci əsrdə Yaponiyada bu proses 34 ilə başa çatmışdırsa, Cənubi Koreyada yüksək inkişaf üçün 11 il vaxt lazım olmuşdur. Koreyanın böyük iqtisadi sıçrayışı təhsilə göstərilən qayğının nəticəsidir. 50 milyona yaxın əhalisi olan bu ölkədə 400-dən çox universitet var. Lisey məzunlarının 84 faizi universitetlərə qəbul olunur. Universitet məzunlarının isə 40 faizi elm sahəsində çalışır. Ümumi Daxili Məhsulda elmi araşdırmaların payı 4 faizə yaxındır. Cənubi Koreyanın təhsilə və elmin inkişafına göstərdiyi qayğı digər sahələrin də sürətli inkişafını təmin etmiş, informasiya texnologiyaları sektorunun inkişafı müstəsna üstünlük qazanmışdır.

Ali Məclisin Sədri demişdir: "2013-cü ildə Azərbaycan Respublikası Təhsil Nazirliyi ilə Koreya Respublikasının Xarici İşlər və Ticarət Nazirliyi arasında Naxçıvan Dövlət Universiteti üçün elektron təhsil şəbəkəsi və rəqəmsal multimedia infrastrukturunun yaradılmasına dair Qrant Sazişi imzalanmış və layihənin icrasına başlanılmışdır. Bu layihə miqyasına görə Koreyanın xarici ölkələrdə həyata keçirdiyi ən böyük layihələrdəndir. Yaradılan yeni sistem Naxçıvan Dövlət Universitetində idarəetmənin təkmilləşdirilməsi, elektron sənəd dövriyyəsinin təşkili, tədrisin keyfiyyətinin yüksəldilməsi baxımından mühüm əhəmiyyətə malikdir".

Ali Məclisin Sədri bütün bunlara görə Cənubi Koreya Respublikasının hökumətinə minnətdarlığını bildirmiş, layihənin uğurlu icrasına görə Koreya Respublikasının Azərbaycandakı Səfirliyinə və Koreya Beynəlxalq Əməkdaşlıq Agentliyinə təşəkkür etmiş, universitetin professor-müəllim heyətinin və tələbə kollektivinin layihənin imkanlarından səmərəli istifadə edəcəklərinə əminliyini ifadə etmişdir.

Naxçıvan Dövlət Universitetinin rektoru, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü Saleh Məhərrəmov çıxış edərək demişdir ki, universitet son 20 ildə böyük inkişaf yolu keçərək müasirtipli və çoxprofilli ali təhsil mərkəzinə çevrilmişdir. Hazırda Naxçıvan Dövlət Universitetində 58 ixtisas üzrə 5349 tələbə təhsil alır. Universitetin müəllimlərindən 9-u Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi və müxbir üzvü, 28-i elmlər doktoru, 177-si fəlsəfə doktorudur. Naxçıvan Dövlət Universitetində tədrisin yeni texnologiyalar əsasında yenidən qurulması da diqqət mərkəzində saxlanılmış, elektron kitabxana, universitet ərazisini əhatə edən simsiz internet şəbəkəsi istifadəyə verilmişdir.

Rektor Naxçıvan Dövlət Universiteti ilə Koreyanın Busan Kyumqsunq, Dequ və Kim Çonq universitetləri arasında səmərəli əməkdaşlıqdan danışaraq qeyd etmişdir ki, hazırda universitetdə 10 koreyalı tələbə təhsil alır, Koreya dili hazırlıq mərkəzi fəaliyyət göstərir. Mərkəzdə Koreya dilini öyrənən tələbələrin sayı 50-dən artıqdır. Bu da müəllim-tələbə mübadiləsinin səmərəli təşkilinə imkan verir. Həmçinin Beynəlxalq münasibətlər fakültəsində "koreyaşünaslıq" fənni tədris olunur. Saleh Məhərrəmov Naxçıvan Dövlət Universitetində yaradılan elektron təhsil şəbəkəsi və rəqəmsal multimedia infrastrukturuna görə universitetin professor-müəllim heyəti və tələbə kollektivi adından minnətdarlıq etmişdir.

Tədbirdə Koreya Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Çoi Suk-İn çıxış edərək demişdir ki, "Elektron təhsil şəbəkəsi və rəqəmsal multimedia infrastrukturu" layihəsi Koreya Respublikası ilə Naxçıvan Muxtar Respublikası arasında əlaqələrin inkişafının daha bir ifadəsidir. Bu layihə Naxçıvan Dövlət Universitetinin xarici ölkələrin, o cümlədən Koreya Respublikasının ali təhsil müəssisələri ilə əlaqələrinin daha da genişlənməsinə və yüksəkixtisaslı kadrların hazırlanmasına öz töhfəsini verəcəkdir. Səfir layihənin həyata keçirilməsində göstərdiyi dəstəyə görə Ali Məclisin Sədrinə minnətdarlıq etmişdir.

Cənubi Koreyanın Dongwon şirkətinin direktoru Hong Yong Hye qarşılıqlı səylər nəticəsində həyata keçirilən bu layihənin elektron tədris sisteminin inkişafındakı rolundan bəhs etmişdir.



Tədbir iştirakçıları elektron təhsil şəbəkəsinin yaradılmasından bəhs edən filmə baxmışlar.

Sonda Naxçıvan Dövlət Universitetinin xarici və yerli tələbələri konsert proqramı ilə çıxış etmişlər.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# Muxtar respublikanın bank sistemində maliyyə sabitliyi təmin edilib



***Fevralın 24-də Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsində 2014-cü ilin yekunları və qarşıda duran vəzifələrə həsr olunmuş yığıncaq keçirilib.***

Yığıncaqda çıxış edən Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin sədri Səbuhi Məmmədov bildirib ki, 2014-cü ildə muxtar respublikada bank sistemində maliyyə sabitliyi təmin edilib, iqtisadi subyektlərin, o cümlədən əhalinin maliyyə resurslarına çıxış imkanları asanlaşıb. 1 yanvar 2015-ci il tarixə muxtar respublikanın iqtisadiyyatına yönəldilən kredit qoyuluşu 100 milyon 667 min manat, o cümlədən qısamüddətli kredit qoyuluşu 15 milyon 499 min manat, uzunmüddətli kredit qoyuluşu isə 85 milyon 168 min manat təşkil edir. Kredit qoyuluşu keçən ilin müvafiq dövrü ilə müqayisədə 16 milyon 380 min manat artıb. Muxtar respublika əhalisinə 13 milyon 77 min manat məbləğində şəxsi istehlak, daşınmaz əmlak alınması üçün 3 milyon 731 min manat məbləğində ipoteka kreditləri verilib. Bank və kredit təşkilatları tərəfindən 2014-cü il ərzində 54 milyon 457 min manat kredit verilib ki, bunun da 21 milyon 362 min manatı qısamüddətli, 33 milyon 95 min manatı isə uzunmüddətli kreditlərdir. Verilmiş kreditin 17 milyon 956 min manatı kənd təsərrüfatı, 5 milyon 674 min manatı sənaye, 7 milyon 180 min manatı tikinti, 4 milyon 702 min manatı kommersiya, 18 milyon 945 min manatı digər kommunal, sosial-istehlak və ipoteka kreditlərinin verilməsi kimi sahələrə yönəldilib. 2014-cü il ərzində verilmiş kreditlərin 33 faizini və ya 17 milyon 956 min manatını kənd təsərrüfatı kreditləri təşkil edir.

"Muxtar respublikada kreditlər üzrə illik orta faiz dərəcəsi 13,5 faiz təşkil edir ki, bu da ölkənin digər regionları arasında ən aşağı faiz dərəcəsidir. Nəticədə, son 9 ildə muxtar respublikada kredit qoyuluşu 97 milyon və ya 33 dəfədən çox artıb", – deyən Səbuhi Məmmədov bildirib ki, banklar tərəfindən 2014-cü il ərzində cəmi 38257 müştəriyə xidmət göstərilib. Xidmət olunan hesabların 35020-si işlək hesab olub. 2014-cü il ərzində 107 hüquqi, 17867 fiziki olmaqla, 17974 müştəriyə yeni bank hesabı açılıb. Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən banklar tərəfindən bankların əməliyyat kassalarına daxil olan nağd pul hasilatını artırmaq və əlavə pul kütləsinin cəlb olunmasının aşağı salınması istiqamətində də müvafiq işlər görülüb. "Naxçıvan Muxtar Respublikasında elektron ödəniş məkanının formalaşdırılması və nağdsız hesablaşmaların həcminin artırılması üzrə Tədbirlər Planı"na uyğun olaraq, nağdsız ödənişlərin miqyası genişləndirilib, vətəndaşların ödəniş kartları vasitəsilə müxtəlif ödənişlər aparması təmin edilib. Bu məqsədlə POS-terminal şəbəkəsinin genişləndirilməsi daim diqqət mərkəzində saxlanılıb, 1 yanvar 2015-ci il tarixə muxtar respublikada onların sayı 867 ədəd olub ki, bu da keçən ilin müvafiq dövrü ilə müqayisədə 619 ədəd çoxdur. Vətəndaşlara müasir bank xidməti göstərilməsi məqsədilə 92 ədəd bankomatla xidmət göstərilib.

İdarə sədri bildirib ki, 2015-ci ildə muxtar respublikada fəaliyyət göstərən bütün bank qurumları tərəfindən elektron ödəniş məkanının formalaşdırılması, kredit portfelinin keyfiyyətinə nəzarətin gücləndirilməsi, pul dövriyyəsinin təşkilinin daha da müasirləşdirilməsi, bank infrastrukturunun inkişafı, nağdsız hesablaşmaların həcminin artırılması, bank resurslarının iqtisadiyyatın real sektoruna, xüsusilə kənd təsərrüfatı və sənayenin inkişafına yönəldilməsi prioritet sahə kimi nəzarətdə saxlanılacaqdır.

Sonra çıxışlar olub.

***Dünən Naxçıvan Müəllimlər İnstitutunun Elmi Şurasının iclası keçirilib.***

# Elmi Şuranın iclası keçirilib



Tədbirdə institutun rektoru, professor Oruc Həsənli çıxış edərək 2014-cü ildə institutda görülən işlər barədə danışıb.

Rektor bildirib ki, ötən il Naxçıvan Müəllimlər İnstitutunda 5 ixtisas üzrə bakalavriat hazırlanıb. 2014-2015-ci tədris ili üçün bakalavr təhsil pilləsi üzrə qəbul planı 300 nəfər olub, 261 nəfər qəbul edilib. Magistratura təhsil pilləsi üzrə qəbul planı 2014-cü ildə 23 nəfər olub və 17 nəfər bu səviyyəyə yüksələ bilib. İnstitutda halhazırda 1096 tələbə təhsil alır ki, onların təhsili ilə 88 nəfər professor-müəllim heyəti məşğul olur. Onlardan 8 nəfəri elmlər doktoru, professor, 37 nəfəri fəlsəfə doktoru, dosentdir.

2013-2014-cü tədris ilinin əyani təhsil formasında qış imtahan-məqbul sessiyasında 794 nəfərin hamısı sessiyada iştirak edib. Sessiyada müvəffəq olanlar 739 nəfər olub. Müvəffəqiyyət göstəricisi 93, keyfiyyət göstəricisi isə 49,2 faiz olub. 2013-2014-cü tədris ilinin əyani təhsil formasında yaz imtahan-məqbul sessiyasında 735 nəfər iştirak edib. 698 nəfər imtahanı müvəffəqiyyətlə verib. Müvəffəqiyyət göstəricisi 96,4, keyfiyyət isə 37,1 faiz olub.

Vurğulanıb ki, 2014-cü ildə Azərbaycan Respublikası Təhsil Nazirliyinin "İctimai təşəbbüslərə dəstək" layihəsi üzrə aparılmış ali məktəblərin reytinq cədvəlində 30 ali məktəb arasında Naxçıvan Müəllimlər İnstitutu 645 balla 9-cu yeri tutub. Ötən il institutda 2 respublika və 1 beynəlxalq səviyyəli konfrans keçirilib.

2014-cü ildə institut əməkdaşlarından 2 nəfərin elmlər doktoru, 1 nəfərin isə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün dissertasiyası müzakirə olunaraq müdafiəyə buraxılıb. İnstitutda olan 6 kafedra üzrə 26 gənc fəlsəfə doktoru, baş müəllim, müəllim fəaliyyət göstərir. Gənc müəllimlər beynəlxalq, respublika və digər nüfuzlu elmi konfranslarda məruzələrlə çıxış ediblər.

2014-cü ildə institut əməkdaşlarının 10 kitabı, 305 elmi məqalə və tezisi dərc olunub. Məqalələrdən 15-i, tezislərin isə 18-i xaricdə nəşr edilib. Ötən il nəşr olunmuş proqramların, metodik vəsaitlərin sayı 18 olub.

İnstitut əməkdaşlarından 31 nəfər beynəlxalq, 51 nəfər isə respublika əhəmiyyətli elmi konfrans, simpozium və seminarlarda məruzələrlə çıxış ediblər.

Sonra məruzə ətrafında müxtəlif sahələr üzrə hesabat çıxışları olub.

**Xəbərlər şöbəsi**

# Xocalı soyqırımı qurbanlarının xatirəsi anılıb



***Fevralın 24-də Yeni Azərbaycan Partiyası (YAP) Naxçıvan Şəhər Təşkilatının təşkilatçılığı ilə Naxçıvan şəhərindəki Xatirə Muzeyində “Xocalı faciəsi XX əsrin ən dəhşətli soyqırımı cinayətidir” mövzusunda konfrans keçirilib.***

Tədbirdə çıxış edən YAP Naxçıvan Şəhər Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, tarix üzrə fəlsəfə doktoru Elman Cəfərli bildirib ki, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə şəxsi heyəti erməni və rus hərbçilərindən təşkil edilmiş 366-cı motoatıcı alayın üç batalyonu bir neçə saat ərzində 7 min nəfərlik Xocalı şəhərini yerlə-yeksan edib, əhaliyə amansız divan tutub. Nəticədə, 613 nəfər azərbaycanlı öldürülüb ki, bunların 106 nəfəri qadın, 63-ü azyaşlı uşaq, 70-i qoca idi.

“Erməni canilərinin dövlət səviyyəsində həyata keçirdikləri hərbi cinayət olan bu soyqırımı aktı XX əsrdə Çexiyanın Liditse, Belarusun Xatın, Vyetnamın Sonqmi kəndlərində həyata keçirilmiş qırğınlarla müqayisədə daha qanlı cinayət kimi bəşəriyyət tarixinə düşüb”, – deyən YAP Naxçıvan Şəhər Təşkilatının sədri qeyd edib ki, Azərbaycan dövləti Xocalı faciəsinin soyqırımı aktı kimi beynəlxalq aləmdə tanıdılması üçün mühüm addımlar atıb. Ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü ilə Milli Məclis 1994-cü il fevralın 24-də “Xocalı Soyqırımı Günü haqqında” xüsusi qərar qəbul edib. “Xocalıya ədalət” kampaniyası çərçivəsində dünyanın 70-dən çox ölkəsində müxtəlifsəpkili tədbirlər keçirilib. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2014-cü il fevralın 13-də “Xocalıya ədalət” kampaniyasının keçirilməsi ilə bağlı tədbirlər haqqında” Sərəncam imzalayıb. Həyata keçirilən məqsədyönlü işlər nəticəsində dünyanın 8 ölkəsi, bir neçə beynəlxalq təşkilat və ABŞ-ın 15-dək ştatı Xocalı faciəsini soyqırımı kimi tanıyıb.

Konfrans iştirakçıları Xatirə Muzeyində ermənilərin xalqımıza qarşı törətdikləri deportasiya və soyqırımı tarixinin əks olunduğu eksponatlarla tanış olduqdan sonra Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin binasına gəliblər. Birliyin sədri, YAP Naxçıvan Şəhər Təşkilatı Qadınlar Şurasının üzvü, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Ülviyyə Həmzəyeva Bəhruz Kəngərli adına Sərgi Salonunda nümayiş etdirilən “Qan yaddaşımız Xocalı” adlı rəsm sərgisi haqqında tədbir iştirakçılarına məlumat verib.

Sonra tədbir iştirakçıları naxçıvanlı rəssamların Xocalı soyqırımına həsr olunmuş rəsm əsərlərinə baxıblar.

* * *

***Fevralın 23-də “Naxçıvan” Universitetində Xocalı faciəsinin 23-cü ildönümü ilə əlaqədar “Xocalı soyqırımı” mövzusunda konfrans keçirilib.***

Əvvəlcə faciə qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Konfransı giriş sözü ilə universitetin rektoru, professor İsmayıl Əliyev açıb.

Ali məktəbin İdarəetmə fakültəsinin dekanı, tarix üzrə fəlsəfə doktoru Elbrus İsayev çıxışında qeyd edib ki, ermənilərin Azərbaycana qarşı ərazi iddiaları XX əsrin əvvəllərindən başlayıb və bu iddialar soyqırımlarla müşayiət olunub. İstər 1905-1907-ci illərdə, istərsə də 1918-1920-ci illərdə Azərbaycanın əksər bölgələrində – Bakı, Quba, Şamaxı, Lənkəran, İrəvan, Naxçıvan və digər yerlərdə törədilən soyqırımı aktları buna sübutdur.

Vurğulanıb ki, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı dəstələri əvvəlki vandalizm aktlarını davam etdirərək keçmiş sovet ordusunun 366-cı motoatıcı alayı ilə birlikdə Xocalıda dəhşətli soyqırımı törədiblər. Xocalı soyqırımı zamanı 613 nəfər dinc sakin, o cümlədən 63 uşaq, 106 qadın, 70 qoca xüsusi qəddarlıqla qətlə yetirilib. Xocalıda 1000 nəfərdən artıq adam, o cümlədən 76 uşaq əlil olub, 8 ailə tamamilə məhv edilib, 25 uşaq hər iki valideynini, 130 uşaq valideynlərindən birini itirib, 1275 nəfər girov götürülüb. Bu günədək 150 nəfər Xocalı sakininin taleyi ilə bağlı heç bir məlumat yoxdur.



Universitetin müəllimi Nurlana Əliyeva “Xocalı faciəsi bədii ədəbiyyatda” mövzusunda çıxış edib. Qeyd edilib ki, Xocalı faciəsi bir çox Azərbaycan şairlərinin və yazıçılarının əsərlərində böyük ürək yanğısı ilə təsvir olunur.

“Xocalı faciəsi dünya mətbuatında” mövzusunda çıxış edən universitetin əməkdaşı Nuray Əsgərova məruzəsində 23 il əvvəl baş vermiş və kifayət qədər ciddi faktları olduğu Xocalı soyqırımının beynəlxalq aləmdə tanıdılmasının əhəmiyyətindən danışıb.

Sonra universitetin tələbələri Xocalı soyqırımı barədə şeirləri bədii qiraət ediblər.

Sonda Xocalı soyqırımı ilə bağlı sənədli film nümayiş olunub.

* * *

***Yeni Azərbaycan Partiyası (YAP) Sədərək Rayon Təşkilatı Xocalı soyqırımının 23-cü ildönümünə həsr olunmuş anım tədbiri keçirib. Əvvəlcə faciə qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib.***

YAP Sədərək Rayon Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Arif Qasımov Xocalı faciəsinin insanlığa qarşı törədilmiş ən böyük cinayətlərdən biri olduğunu deyib. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni quldurlarının və keçmiş SSRİ-nin 366-cı motoatıcı alayının dinc sakinləri, körpələri, qadınları, qocaları vəhşicəsinə qətlə yetirməsi, bu müdhiş hadisənin səbəb və nəticələri barədə ətraflı danışan təşkilat sədri Xocalı faciəsinə gedən yolun Qaradağlı, Malıbəyli, Quşçular, Meşəli qırğınlarından keçdiyini vurğulayıb.

Qeyd olunub ki, Xocalı soyqırımı haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycan xalqına qarşı və ümumən, insanlıq əleyhinə törədilmiş bu son dərəcə ağır hərbi cinayətin beynəlxalq miqyasda siyasi-hüquqi qiymət alması məsələsi dövlət siyasətinin mühüm istiqamətlərini təşkil edir. Bu uğurlu strateji xətt artıq öz bəhrəsini verməkdədir. Bütün dünya erməni faşizminin iç üzünü görməkdədir. İnanırıq ki, Xocalı da, işğal altındakı digər torpaqlarımız da tezliklə düşmən tapdağından azad ediləcək. Eyni zamanda Xocalı faciəsini törədənlər, dinc əhaliyə divan tutanlar beynəlxalq ictimaiyyət qarşısında cavab verəcəklər.

Anım tədbirində YAP Sədərək Rayon Təşkilatı 1 nömrəli tam orta məktəbi ərazi ilk partiya təşkilatının sədri Gülnarə Hüseynova, YAP Sədərək Rayon Təşkilatı Qadınlar Şurasının sədri Vüsalə Əliyeva, partiya fəallarından Məhərrəm Seyidov və Ceyhun Qurbanovun çıxışları olub.

Sonda tədbir iştirakçıları “Xocalı – qan yaddaşımız” adlı sərgiyə baxıblar.

* * *



***Dünən Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasında da Xocalı faciəsinin 23-cü ildönümü ilə əlaqədar tədbir keçirilib.***

Tədbiri giriş sözü ilə şuranın sədri Sucaxan Novruzov açaraq Xocalıda həyata keçirilən qətliamın bəşəriyyətə və insanlığa qarşı törədilmiş ən dəhşətli cinayət olduğunu bildirib, beynəlxalq ictimaiyyətin Xocalı soyqırımına siyasi-hüquqi qiymət verməsinin vacibliyini vurğulayıb.

Qeyd edilib ki, biz hamılıqla dünyanın bu faciəyə biganə qalmamasına çalışmalıyıq. Çünki Xocalı faciəsi XX əsrin ən dəhşətli soyqırımı hadisələrindən biridir. Tarixi saxtalaşdırmaqla məşğul olan ermənilər mövcud olmayan, tarixdə baş verməyən qondarma “erməni soyqırımı”nı dünyada təbliğ etməklə özlərini məzlum xalq kimi qələmə verməyə çalışırlar. Amma, əslində, yüz ildən çoxdur ki, özləri xalqımıza qarşı zaman-zaman qətliamlar, soyqırımları törədiblər. Onların Xocalıda azərbaycanlılara qarşı qəddarcasına törətdikləri soyqırımı isə çox da uzaq olmayan bir dövrdə baş verib və bu soyqırımının canlı şahidləri vardır.

Sonra şuranın əməkdaşlarından Xatirə İbrahimlinin, Ceyhun Məmmədovun, Gözəl Qənbərovanın, Hüseyn Quliyevin və başqalarının çıxışları olub. Çıxışlarda vurğulanıb ki, Ermənistanın bu gün də davam edən hərbi təcavüzü ilə üz-üzə qalmış Azərbaycanın tarixi həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılması istiqamətində bir sıra işlər görülüb. Bu tədbirlərdən “Xocalıya ədalət” beynəlxalq təbliğat və məlumatlandırma kampaniyası Qarabağ həqiqətlərinin dünyaya çatdırılmasında uzaqgörənliklə düşünülmüş uğurlu bir strategiyadır. “Xocalıya ədalət”, əslində, Azərbaycana ədalət deməkdir. Bu kampaniyaya qoşulmaq isə Vətənini, xalqını sevən hər bir azərbaycanlının borcudur.

**Xəbərlər şöbəsi**

***Birinci Dünya müharibəsində vuruşan dövlətlər 1918-ci il oktyabr ayının 30-da Mudros müqaviləsini bağladılar. Bu müqavilənin bağlanması erməni daşnaklarının əl-qolunu açdı. Məlumat üçün qeyd edək ki, hələ Mudros müqaviləsindən əvvəl də daşnaklar Naxçıvanda qanlı qırğınlar törətmişdilər.***

# Araz-Türk Cümhuriyyəti Naxçıvanın müdafiəsində mühüm rol oynayıb

## *Bu respublikanın qurucularından biri də Qənbərəli bəy Bənəniyarski idi*

Bolşevik hökumətinə arxalanan Stepan Şaumyan Qafqaz işləri üzrə müvəqqəti komissar təyin olunduğundan onun daşnak quldur dostu Andranik Naxçıvana və Zəngəzura hücum etmişdi. Şərur-Dərələyəz və Naxçıvan qəzalarında qanlı qırğınlar törədən quldur Andranikə qarşı naxçıvanlılar çox qəhrəmanlıqla döyüşmüşlər. Vəziyyətdən asılı olaraq Naxçıvanın və Şərurun, Ordubadın, Mehrinin və digər yerlərin daşnaklardan müdafiə olunması üçün külli-ixtiyar hərbi inzibati komitəyə həvalə olunmuşdu.

Azərbaycan Xalq Cümhuriyyəti hələ yenicə qurulduğundan Naxçıvana və Zəngəzura kömək edə bilmirdi.

1918-ci il iyunun əvvəllərində Türkiyə ordusunun 9-cu və 11-ci diviziyaları İrəvan yaxınlığındakı Uluxanlıdan hərəkət edərək iyunun 11-də Naxçıvana daxil olmuşdur. Türk qoşunları Naxçıvanın könüllü döyüş taborları ilə birlikdə erməni daşnaklarını darmadağın etmişlər.

Bölgəni erməni zülmündən qurtarmaq üçün Naxçıvan Araz-Türk hökuməti təşkil edilmişdir. Qəmərlidəki məsləhətləşmələr zamanı oradakı nümayəndələrin bəziləri məsləhət görmüşdür ki, mərkəz Sürməlidə (indiki İqdırda) olsun. Amma idarəçilik və müdafiə işləri birbaşa Naxçıvanla bağlı olduğundan naxçıvanlı nümayəndələrin tələbi ilə hökumətin mərkəzi Naxçıvan şəhəri elan edilmişdir. Naxçıvanı rəsmi olaraq Cəfərqulu xan Kəngərli-Naxçıvanski idarə edirdi. Onun oğlu III Kalbalı xan Naxçıvan Araz-Türk Respublikasının silahlı qüvvələrinin komandanı olmuşdur. Çünki o, vaxtilə Rusiyada ali təhsil almış hərbçi idi. Naxçıvan bölgəsinin müdafiəsində türklərin burada qoyub getdiyi 300 əsgər və 5 zabit də müdafiədə yerli əhaliyə yaxından kömək etmişlər.

Bir neçə ay fəaliyyət göstərmiş Naxçıvan Araz-Türk Respublikası elə hünərlər göstərmişdi ki, ingilislər bundan çox qorxuya düşmüşdülər. Onlar 1919-cu ilin əvvəllərində Naxçıvanda ingilis general-qubernatorluğu yaratmış və gənc respublikanı süquta uğratmışlar.

Məqamındaca deyək ki, tədqiqatçı alimlər akademik İsmayıl Hacıyev və Aydın Hacıyev yazdıqları monoqrafiyalarda bu məsələlərə aydınlıq gətirmişlər.

Yazılan xatirələrdən və monoqrafiyalardan məlum olur ki, Naxçıvan Araz-Türk Respublikasının qurucularından biri, orada qeyd edildiyi kimi desək, Maliyyə naziri Qənbərəli bəy Bənəniyarski olub.

Uzun axtarışlardan sonra bu igid həmyerlimiz haqqında hələlikdə azacıq da olsa, məlumat və o dövrü əks etdirən fotoşəkillər əldə etdik.

Qənbərəli bəy Şirəli bəy oğlu Bənəniyarski 1890-cı ildə Naxçıvan yaxınlığındakı Bənəniyar kəndində anadan olmuşdur. Naxçıvan xanlığına aid sənədlərdə onun ulu babaları Bənəniyarlı kimi qeyd olunublar. Naxçıvan, İrəvan və Gəncə gimnaziyalarında təhsil alan Qənbərəli



Qənbərəli bəy Bənəniyarski – sağdan birinci

bəy sonralar Rusiyada ali təhsil almışdır. O vaxtın məşhur universitetlərindən birində təhsil alan Qənbərəli bəy Naxçıvana hüquqşünas kimi qayıtmışdır. 28 yaşlı gənc hüquqşünasın harada işləməsi haqqında məlumatımız olmasa da, Naxçıvanın erməni daşnak quldurlarından müdafiə olunması uğrunda döyüşçülər arasında adı tez-tez çəkilir. Hətta tapdığımız bir nadir fotoda o, naxçıvanlı döyüşçülərlə birlikdə səngərdədir.

Qənbərəli bəy gənc olsa da, vətənin ən çətin günlərində yaradılan Naxçıvan Araz-Türk Respublikasında Maliyyə naziri vəzifəsinə təyin olunub.

Xatırlatmaq yerinə düşər: bu respublikanın ərazisi 16 min kvadratkilometrdən çox, əhalisi isə 1 milyon nəfərə yaxın idi. Ərazisində Naxçıvan, Şərur-Dərələyəz, Ordubad qəzaları, Sərdarabad, Uluxanlı, Vedibasar, Qəmərli, Mehri və başqa regionlar yerləşirdi. Parlamenti, polis idarələri və onların şöbələri də yaradılmışdı. Əsas diqqət müdafiə işinə – hərbi quruculuğa yönəldilmişdi. Bütün bu işlərin maliyyə məsələləri gənc hüquqşünas Qənbərəli bəyə tapşırılmışdı.

Öz işinin öhdəsindən bacarıqla gələn Qənbərəli bəy həm də yaxşı döyüşçü idi. Naxçıvan Araz-Türk Respublikasının azacıq bir zamanda – 3 ayda gördüyü işlər tariximiz üçün böyük faktlar verir.

Azğın düşmənlərə qarşı aparılan mübarizədə oynadığı böyük rolun nəticəsidir ki, respublikanın dəftərxanası ingilislər tərəfindən müsadirə olunub. Azərbaycanda və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvanda sovet hökuməti qurulduqdan – 1922-ci ildən sonra Qənbərəli bəy məcburən Bakıya köçmüşdür. İnqilab Komitəsinə rəhbərlik edən bolşeviklər Naxçıvanın ziyalılarını, hərbçilərini həbs edir və gedər-gəlməzə göndərirdilər. Qənbərəli bəy isə Naxçıvanın 1918-1920-ci illərdə siyasi tarixində əsas aparıcı simalarından olduğu üçün daha çox təqib edilir, siyasi idarənin xüsusi şöbəsinə sorğu-suala çağırılırdı. O, milyonçu M.H.Nəsirbəyovun qızı Zəhra xanım ilə ailə qurduğundan Naxçıvandan tez köçməsini tələb etmişlər. Təəssüflər ki, onun 1922-ci ildən sonra Bakıda harada yaşaması və işləməsi haqqında məlumat yoxdur. Amma Azərbaycan Milli Təhlükəsizlik Nazirliyinin arxivinin sənədlərində 29 noyabr 1937-ci ildə güllələnməsi haqda məlumat vardır.

***Ümidimiz var ki, Odessa, Sankt-Peterburq, Kiyev və Bakı şəhərlərindəki arxivlərdə bu qəhrəman eloğlumuza aid şəxsi qovluqları tapa biləcəyik. Cəmi 47 il ömür sürən və Naxçıvanın erməni daşnak quldurlarından qorunmasında şücaətlər göstərən Qənbərəli bəy Bənəniyarski tariximizin görkəmli şəxsiyyətlərindən biridir.***

**Musa QULİYEV**
*AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun böyük elmi işçisi, tarix üzrə fəlsəfə doktoru*

## Növbəti ixtisasartırma kursuna başlanılıb

Fevralın 9-da Naxçıvan Muxtar Respublikasında 2014-cü ilin yekunları və qarşıda duran vəzifələrə dair keçirilmiş müşavirədə aidiyyəti orqanlara sahibkarların maarifləndirilməsi, bütün işçilərlə işəgötürənlər arasında əmək müqavilələrinin bağlanmasına diqqətin artırılması, hər bir sahibkara tabeliyində çalışan işçilər üçün normal iş və istirahət şəraitinin yaradılması, xüsusi istehsal müəssisələrində əməyin təşkili və təhlükəsizlik qaydalarına əməl olunmasına nəzarətin gücləndirilməsi kimi tapşırıqlar verilib.

Verilən tapşırıqların icrasına uyğun olaraq, fevralın 23-dən Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təşkilatçılığı ilə Naxçıvan Regional Peşə Tədris Mərkəzində “Texniki təhlükəsizlik və əməyin mühafizəsi normaları, qaydaları və standartlarına əməl olunması” mövzusunda növbəti ixtisasartırma kursunun keçilməsinə başlanılıb.

Kursa “Cahan Qida Market”, “Cahan Qənd”,“Cahan Tobacco”, “Bərəkət Qida Məhsulları”, “Hilal” Ət və Ət Məhsulları”, “Ləzzət Qida Sənaye”, “Prestij Naxçıvan Pivəsi”, “Naxçıvan Duz İstehsalı” Məhdud Məsuliyyətli cəmiyyətlərin, “Sirab“ Açıq Səhmdar Cəmiyyətinin və “Fərda” şirniyyat müəssisəsinin, ümumilikdə, 10 mütəxəssisi cəlb edilib.

Kurs 7 gün davam edəcək. Bu müddət ərzində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinin mütəxəssisləri tərəfindən işçilər üçün normal iş və istirahət şəraitinin yaradılması, əməyin mühafizəsi və təhlükəsizlik qaydalarına əməl olunması, bu istiqamətdə daxili nəzarətin gücləndirilməsi, baş verə biləcək bədbəxt hadisələr və peşə xəstəliklərinin qarşısının alınmasına dair, həmçinin Naxçıvan Muxtar Respublikası Prokurorluğunun, Səhiyyə Nazirliyinin, Dövlət Baş Sığorta Agentliyinin nümayəndələri tərəfindən iş sahəsində əməyin mühafizəsi və təhlükəsizlik tədbirlərinin görülməməsinə görə məsuliyyət, iş yerlərində sağlam sanitariya-gigiyena şəraitinin yaradılması, baş verən qəzalar zamanı zərərçəkənə ilk tibbi yardımın göstərilməsi, baş verən bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə-əmək qabiliyyətinin itirilməsi hallarından işçilərin icbari sığorta olunmasının zəruriliyi ilə bağlı müvafiq mövzular tədris olunacaq.

Yekunda kurs iştirakçılarının bu sahədə bilikləri yoxlanılacaq.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

## “Dolu” filmi nümayiş etdirilib

Naxçıvan şəhərindəki “Gənclik” Mərkəzində Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyinin, Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə Xocalı şəhidlərinin xatirəsinin yad edilməsi və tarixi həqiqətlərin gənclərə çatdırılması məqsədilə “Dolu” bədii filmi nümayiş olunub. Film Milli Məclisin deputatı, Azərbaycan Respublikasının Əməkdar jurnalisti, Azərbaycan Yazıçılar Birliyinin üzvü Aqil Abbasın “Dolu” romanının motivləri əsasında çəkilib. Film Qarabağ müharibəsində Vətən uğrunda son damla qanına qədər döyüşən Azərbaycan oğullarının qəhrəmanlıqlarından bəhs edir.

Qeyd edək ki, bu cür filmlərin nümayiş etdirilməsi qarşıdakı aylarda da nəzərdə tutulub.

**Xəbərlər şöbəsi**

***Ötən həftə start verilən boks üzrə gənclər arasında Azərbaycan birinciliyinə yekun vurulub. Ölkənin ən güclü dəri əlcək sahiblərinin mübarizəsində naxçıvanlı boksçular da qüvvələrini sınayıblar.***

## Naxçıvanın boks komandası ölkəmizin üç ən güclü komandasından biri olub

Hövsan Olimpiya-İdman Kompleksində keçirilən birincilikdə bütün diqqətlər ötən ay kişilər arasında keçirilən ölkə çempionatının qalibi olan və Avropa Oyunlarına vəsiqə qazanan Tayfur Əliyevə yönəlmişdi. Bu dəfə 56 deyil, 60 kiloqram çəki dərəcəsində rinqə çıxan dəri əlcək sahibimiz hakimlərin “səyləri” nəticəsində həlledici qarşılaşmada məğlub olub, daha dəqiq desək, rəqibinə bütün səylər qarşılığında uduzdurulub. Belə ki, həlledici qarşılaşmaya kimi 4 rəqibini açıq üstünlüklə məğlub edən Tayfur Əliyev finalda “Rabitə” klubunun idmançısı Elməddin İsmayılovla üz-üzə gəlib. Görüşün ilk raundunda rəqibini naqdaun vəziyyətinə salan boksçumuz ikinci raundda da tam üstün mübarizə nümayiş etdirməsinə və rəqibin xəbərdarlıq almasına baxmayaraq, hakimlərin “qərarı” rəqibin lehinə olub. Bununla kifayətlənməyən “ədalət” təmsilçiləri üçüncü raundda Tayfur Əliyevin zərbəsindən sonra Elməddin İsmayılovun düşən kapasına (dişliyinə) belə, göz yumublar. Nəticədə, uduzdurulan boksçumuz gənclər arasında keçirilən ölkə birinciliyini gümüş medalla başa vurub. Həmyerlimiz bu birinciliyi qızıl medalla başa vuracağı təqdirdə Azərbaycan boks tarixində bir ilkə imza atacaqdı ki, hakimlər buna “imkan yaratmadılar”.

91 kiloqram çəki dərəcəsində mübarizə aparan Nihad Orucov da gümüş medal qazanıb. Ən yaxşı nəticəni isə 56 kiloqram çəki dərəcəsində mübarizə aparan Sərxan Əliyev göstərib. O, həlledici qarşılaşmada “Neftçi” idman cəmiyyətinin boksçusu İbrahim İmanovu tam üstünlüklə məğlub edərək Azərbaycan birinciliyinin qalibi olub. Bununla Sərxan Əliyev noyabr ayında Polşada keçiriləcək gənclər arasında Avropa çempionatında iştirak etmək hüququ qazanıb.

Bu nəticələrdən sonra Naxçıvan komandası ölkənin ən güclü 3 komandasından biri kimi təltif olunub. 33 komanda arasında komandamız yalnız “Rabitə” və “Gilan”dan geri qalıb.

Boksçularımızla yanaşı, Azərbaycan birinciliyində Naxçıvanı hakim kimi Naxçıvan Boks Federasiyasının sədr müavini Məmmədcəfər Əliyev təmsil edib.

## Federasiyalar görüləcək işlərlə bağlı tədbirlər keçirir

Fevralın 21-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində “Naxçıvan Muxtar Respublikasında bədən tərbiyəsi və idmanın hazırkı vəziyyəti və qarşıda duran vəzifələr” mövzusunda keçirilən müşavirədən sonra muxtar respublikada fəaliyyət göstərən federasiyalarda verilən tapşırıqlarla bağlı iclaslar təşkil olunub. İlk belə toplantı Güləş və Boks federasiyalarında keçirilib. İclaslarda çıxış edən Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin Kütləvi bədən tərbiyəsi və idman şöbəsinin müdiri Taleh İbrahimov, federasiyaların sədr müavinləri Yaşar Səfərov və Məmmədcəfər Əliyev bu idman növlərinin inkişafı üçün gələcəkdə görüləcək işlər barədə məlumat veriblər. Bu cür tədbirlər Hava və Ekstremal İdman Növləri, Şahmat və Futbol federasiyalarında da təşkil olunub.

Analoji yığıncaqların həftə ərzində bütün federasiyalarda keçirilməsi gözlənilir.

## Duzdağ yolunda kross yarışı



***Dünən Heydər Əliyev adına Hərbi Liseyin kursantları arasında Duzdağ yolunda Xocalı faciəsinin 23-cü ildönümünə həsr olunmuş 3 kilometr məsafəyə kross qaçışı üzrə Naxçıvan şəhər turniri keçirilib.***

Naxçıvan Muxtar Respublikası Yüngül Atletika Federasiyası və Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin birgə təşkil etdiyi turnirin açılışından öncə Xocalıda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin rəisi Xəyal Qurbanov tədbiri açıq elan edərək Xocalı faciəsi barədə idmançılara ətraflı məlumat verib.

Yüngül Atletika Federasiyasının sədr müavini İntiqam Rəhimov iştirakçılara uğurlar arzulayıb.

100-dən çox kursantın mübarizə apardığı turnirdə ilk üç pilləni Əkbər Rəhimov, Bürhan Tağıyev və Tuncay İmanov tutublar.

Fərqlənən kursantlar Yüngül Atletika Federasiyasının hədiyyələri və Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin diplom və fəxri fərmanları ilə mükafatlandırılıblar.

***Xocalı faciəsinin 23-cü ildönümünə həsr olunmuş yeniyetmələr arasında sərbəst güləş üzrə Babək rayon birinciliyi keçirilib.***

## Güləş üzrə rayon birinciliyi

Nehrəm kənd 3 nömrəli tam orta məktəbdə keçirilən yarışda rayonun Nehrəm, Payız, Qaraqala, Zeynəddin, Şıxmahmud və Cəhri kənd məktəblilərindən ibarət komandalar birincilik uğrunda mübarizə aparıblar. Babək Rayon Uşaq-gənclər idman məktəbinin təşkilatçılığı ilə keçirilən yarış Xocalıda şəhid olanların əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb. Sonra Babək Rayon Uşaq-gənclər idman məktəbinin direktoru Füzuli Salmanlı tədbiri açaraq Xocalı faciəsi barədə danışıb. Yarışın qaydaları haqqında idmançılara məlumat verən Füzuli Salmanlı onlara uğurlar arzulayıb.

15 kiloqram çəki dərəcəsində 120-dən çox idmançının iştirak etdiyi birinciliklə Şıxmahmud kənd



məktəbliləri IV, Cəhri kənd məktəbliləri III, Zeynəddin kənd məktəbliləri II, Nehrəm kənd məktəblilərinin komandası isə I yerlərə layiq görülüblər.

Sonda qalib komandalar Babək Rayon Təhsil Şöbəsinin və Uşaq-gənclər idman məktəbinin diplomları ilə təltif ediliblər.

**✍ Ceyhun MƏMMƏDOV**

***Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin yaradılmasının 23-cü ildönümü ərəfəsində gömrükçülər qanvermə aksiyası keçirib.***

## Talassemiyalı xəstələr üçün qanvermə aksiyası

“Gömrükçülər sizi unutmur” adlı aksiyada məqsəd talassemiya və digər qan xəstəliklərindən əziyyət çəkənlərə və bədbəxt hadisələr nəticəsində xəsarət almış insanlara təmənnasız yardım etməkdən ibarət olub. Könüllülük prinsipi əsasında keçirilən aksiyada əməkdaşlar gömrük orqanlarının yerləşdikləri ərazi vahidləri üzrə səhiyyə ocaqlarında qan veriblər.

Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin və Naxçıvan Şəhər Gömrük İdarəsinin əməkdaşları Naxçıvan Diaqnostika-Müalicə Mərkəzinə gələrək bu nəcib və humanist xarakterli aksiyada iştirak ediblər. Mərkəzin həkim-hemotoloqları tərəfindən hər bir donorun sağlamlığı öncədən müəyyən olunub. Donorlardan arterial təzyiq, hepatit və digər yoluxucu xəstəliklərin müəyyən edilməsi üçün qan analizləri götürülərək testdən keçirilib. Donorlardan götürülən qan qruplar üzrə müəyyənləşdirilərək xüsusi şəraitdə qan bankına təhvil verilib.

Culfa Gömrük İdarəsinin əməkdaşları isə Culfa Rayon Mərkəzi Xəstəxanasında qan veriblər. Ümumilikdə, qanvermə aksiyasında 110 gömrükçü iştirak edib. Bu xeyirxah aksiya nəticəsində qan bankında xəstələrə köçürülmək üçün kifayət qədər ehtiyat yaradılıb.

***Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin mətbuat xidməti***

## İnşa-yazı, şeir və rəsm müsabiqələri başa çatıb

Naxçıvan şəhərindəki 7 nömrəli tam orta məktəbdə Xocalı soyqırımının 23 ildönümünə həsr olunmuş muxtar respublikada fəaliyyət göstərən ümumtəhsil məktəblərinin şagirdləri arasında inşa-yazı və şeir müsabiqələri keçirilib. Müsabiqənin keçirilməsində məqsəd Xocalı qurbanlarının xatirəsinin yad edilməsi, məktəblilərdə vətənpərvərlik, Vətənə məhəbbət hisslərinin yüksəldilməsi, vətəndaşlıq hisslərinin aşılanması və istedadlı şagirdlərin üzə çıxarılmasından ibarət olub. Tədbirin açılışında Naxçıvan Muxtar Respublikası Gənclər və İdman, Təhsil nazirliklərinin nümayəndələri çıxış edərək Xocalı soyqırımı haqqında məlumat veriblər.

Sonra şagirdlərin ifasında Xocalı soyqırımı haqqında şeirlər səslənib. Sonda münsiflər heyəti tərəfindən qaliblər müəyyən edilib. Şeir müsabiqəsində Naxçıvan şəhərindəki Qızlar Liseyinin şagirdi Gülay Novruzova birinci, Şahbuz rayon Mahmudoba kənd tam orta məktəbinin şagirdi Aysu Pirməmmədli ikinci, Sədərək rayon Qaraağac kənd tam orta məktəbinin şagirdi Vəfa Əliyeva üçüncü yerlərə layiq görülüblər.

İnşa-yazı müsabiqəsində isə Kəngərli rayon Yurdçu kənd tam orta məktəbinin şagirdi Nigar Rüstəmova qalib adını qazanıb. Sədərək rayon Sədərək kənd 1 nömrəli tam orta məktəbin şagirdi İnci Hüseynli ikinci, Ordubad rayon Dəstə kənd 2 nömrəli tam orta məktəbin şagirdi Anar İsmayılzadə isə üçüncü olublar.

* * *

***Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda Xocalı soyqırımının 23-cü ildönümü ilə əlaqədar muxtar respublikada fəaliyyət göstərən ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri arasında rəsm müsabiqəsi keçirilib.***

Müsabiqənin keçirilməsində məqsəd Xocalı faciəsi qurbanlarının xatirəsinin yad edilməsi, tələbələrdə vətənpərvərlik, Vətənə məhəbbət hisslərinin yüksəldilməsi və istedadlı gənclərin üzə çıxarılmasıdır. Müsabiqəyə start verilməmişdən öncə Rəssamlar Birliyinin sədri Ülviyyə Həmzəyeva, Gənclər və İdman Nazirliyinin əməkdaşı Nicat Babayev, “Naxçıvan” Universitetinin prorektoru Əli Yusifov çıxış edərək Xocalı soyqırımı haqqında məlumat veriblər.

Sonra münsiflər heyəti tərəfindən qaliblər müəyyən edilib. Ali təhsil müəssisələrinin tələbələri arasında birinci yerə Naxçıvan Dövlət Universitetinin tələbəsi Nuranə Novruzova, ikinci və üçüncü yerlərə Naxçıvan Müəllimlər İnstitutunun tələbələri Raya Abbasova və Bahar Eyvazova layiq görülüblər. Orta ixtisas təhsili müəssisələrinin tələbələri arasında Naxçıvan Tibb Kollecinin tələbəsi Eldar İbrahimov, Naxçıvan Dövlət Texniki Kollecinin tələbəsi Könül Mərdanova və bu kollecin digər tələbəsi Axtər Sadiqova müvafiq olaraq ilk üç pillədə qərarlaşıblar.

Sonda qaliblərə təşkilatçılar tərəfindən diplom, fəxri fərman və hədiyyələr təqdim edilib.

**✍ C.MƏMMƏDOV**

### İtmişdir

Naxçıvan şəhəri, Xətai məhəlləsi, döngə 1, ev 56-da yaşayan İsmayılov Feyzulla Kərəm oğlunun adına olan 15767 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

* * *

Naxçıvan şəhərinin Qaraçuq kənd sakini Əliyev Elman Əkbər oğlunun adına olan JN-833A inventar nömrəli, 10304018 kodlu “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

* * *

Kəngərli rayonunun Xok kəndində yaşamış Zeynalov Əloş Cəlal oğlunun adına olan AA-002491 nömrəli plan-ölçü və MH-0009747 seriya nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Kərəm Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 176